# İrəvan teatrı Sabirabadda



Son vaxtlar Respublikamızın paytaxtında fəaliyyət göstərən teatr və musiqi kollektivlərinin vətənimizin rayon və şəhərlərində xalqımızla görüşləri adi hal alıb.

Azərbaycan Musiqi Festivalı çərçivəsində sabirabadlıların qonağı olmuş kollektivlərdən sonra, bu dəfə rayona İrəvan Dövlət Dram Teatrı gəldi. Respublika Prezidentinin verdiyi sərəncama əsasən İrəvan Dövlət Dram Teatrının 125 illik yubileyi təntənəli surətdə qeyd ediləcək. Teatr bu münasibətlə Azərbaycanın bir sıra regionlarında çıxış etmişdir.

İrəvan Dövlət Dram Teatrı özünün xüsusi dəst-xəttilə seçilən kollektivlərimizdəndir. Kollektivdə çalışan aktyorlar demək olar ki, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir. Teatrın kollektivi bu dəfə öz tamaşaçılarının görüşünə şair-dramaturq Hidayətin «Bu dünyanın adamları» qəmli komediyası ilə gəlmişdilər. Tamaşada müxtəlif insan taleləri aktyorlar tərəfindən (Arif Quliyev (xalq artisti), Azər Mirzəyev (əməkdar artist), Süleyman Nəcəfov (əməkdar artist), aktyorlar Vahid Əliyev, Tünzalə Əliyeva, Elnarə Heydərova, Zəhra Baxşəliyeva, Sərvər Əliyev, Qurban İsmayılov, Vaqif Kərimov və Samir Bayramov tərəfindən müvəffəqiyyətlə nümayiş etdirildi.

Müsahibim teatrın direktoru İftixar Piriyevdir. O qeyd etdi ki, kollektiv son illərdə bir sıra dünya və Azərbaycan dramaturqlarının əsərlərini tamaşaya hazırlamışdır. İlyas Əfəndiyevin «Məhv olmuş gündəliklər», Hidayətin «Durnalar qayıdanda», Anarın «Telefon gecələri», Əziz Nesinin «Toros Canavarı», Marat Haqverdiyevin «Qısqanc ürəklər», «Məhəbbət yaşa baxmır» və başqa əsərlər bu qəbildəndir.

Direktor C.Cabbarlı adına İrəvan Azərbaycan Dövlət Dram Teatrının uğurlarından danışaraq kollektivin gələcəyə nikbin nəzərlərlə baxdığını vurğuladı. Biz də İftixar müəllimin sözləri ilə razılaşaraq, 125 yaşlı sənət məbədinin bütün uğurlarına sevinir və işgüzar kollektivə yeni-yeni uğurlar arzulayırıq. Əminik ki, onlar bizi yenə də rəngarəng tamaşaları ilə heyran edəcəklər.

**Mahir ƏBİLOV,**
**zona müxbirimiz**